Bakının Qurtuluşu

100 il

GƏNCƏ GÖYÇAY AĞDAŞ KÜRDƏMIR UCAR HACIQABUL AĞSU ŞAMAXI SALYAN İSMAYILLI QUBA XAÇMAZ LƏNKƏRAN ASTARA NAXÇIVAN QARAMƏRYƏM MÜSÜSLÜ KARRAR LƏKİ CƏNGİ PADAR QARASU MƏRƏZƏ QOBU XIRDALAN XOCAHƏSƏN NƏVAİ PUTA ƏLƏT GÜZDƏK NASOSLU SUMQAYIT BİLƏCƏRİ SƏNGƏÇAL SABUNÇU SURAXANI QOBU MAŞTAĞA FATMAYI BİNƏQƏDİ QURD QAPISI BALAXANI MASAZIR MƏRDƏKAN DİGAH BUZOVNA BİNƏ KÜRDƏXANI SARAY HÖVSAN ZABRAT MƏHƏMMƏDİ BALAXANI RAMANA ƏHMƏDLİ ŞUBANI BAYIL HEYBƏT STANSİYASI QARAŞƏHƏR

Nəsiman YAQUBLU

QAFQAZ İSLAM ORDUSUNUN AZƏRBAYCANDA İZLƏRİ

Nəsiman YAQUBLU

# QAFQAZ İSLAM ORDUSUNUN AZƏRBAYCANDA İZLƏRİ



Nəsiman YAQUBLU

# QAFQAZ İSLAM ORDUSUNUN AZƏRBAYCANDA İZLƏRİ

Bakı - 2018

**Müəllif kitabın nəşrinə göstərdiyi dəstəyə görə**
**Türkiyə Cümhuriyyəti Bakı Böyükelçiliyinə öz təşəkkürünü bildirir.**

*Müəllif Qafqaz İslam Ordusu və Nuru Paşa ilə bağlı Azərbaycan bölgələrində aparılan axtarışlar və araşdırmalar zamanı ona yardımçı olmuş aşağıdakı şəxslərə minnətdarlığını bildirir: Gəncədə* ***Cahangir Əmirxanlı, Vaqif Sadıqov, Kamal Zeynalov, Samir Pişnamazzadə, Nəcəf Abbasov****; Göyçayda* ***Namiq Hacıbəyli, Niman Əsgərov, Əlirasim Əhmədli, Etibar Məmmədov, Hidayət Zülfüqarov****; Kürdəmirdə* ***Vilayət Abuşov****; Hacıqabulda* ***Zahidağa Səmədbəyli, Mübariz Xəlilov, Elşən Heydərov, Mehman Ağayev, Hüseyn İsmayılov****; Şamaxıda, Qobustanda* ***Yasəf Ağazadə, Yavuz Eyyubov, Məmmədağa Məlikov, Muğanşah Əzimov, Famis Quliyev****; Ağsuda* ***Yaşar Qarayev, Rufulla Yolçiyev****; Şəkidə* ***Elman Fəttah****; Neftçalada* ***Əli Babayev, Mehman Babayev****; Salyanda* ***Nizami Abbaslı****; Qobuda, Güzdəkdə* ***Vaqif Xəlilzadə, Oqtay Xəlilov, Fərahim İlqaroğlu****; Mərdəkanda* ***Elnur Mirzəbəyli****. Qəbələdə* ***Eldəniz Şamlı Abbaslı****; Naxçıvanda* ***Kəmaləddin Qədim****; Qubada* ***Mehman Kamran***

***Bu tarixi fotokitab 1918-ci ildə Azərbaycana xilaskar bir qüvvə kimi gəlib vətənimizi bolşevik-daşnak qüvvələrindən azad etmiş Qafqaz İslam Ordusuna və onun komandanı Nuru Paşanın fədakarlığına həsr edilib. Kitabda Qafqaz İslam Ordusunun və Nuru Paşanın Azərbaycanda bu gün də qorunub saxlanılan izləri ilə bağlı maraqlı məlumatlar verilib.***

# QAFQAZ İSLAM ORDUSU. NURU PAŞANIN FƏDAKARLIĞI. BAKININ QURTULUŞU

Rusiyada 1917-ci ildə baş verən Oktyabr inqilabından və bu hadisə nəticəsində bolşeviklərin hakimiyyətə gəlməsindən sonra Osmanlı dövləti Güney Qafqazda fəallığını artırdı. Bu fəallaşmada Baş komandan vəkili **Ənvər Paşanın** və III Ordu komandanı Vəhib Paşanın xüsusi rolu vardı. Məhz Ənvər Paşanın təklifi ilə Vəhib Paşa 1918-ci ilin yanvarın 9-da Qafqazdakı rus hərbi qüvvələrinin müvəqqəti komandanı, gürcü generalı Odişelidzeyə bir məktubla müraciət etmişdi. 1918-ci ilin yanvarın 16-da isə Vəhib Paşa Ənvər Paşanın hazırladığı teleqramı Tiflisdəki Rus-Qafqaz ordusu komandanlığına çatdırdı. Bu teleqramda Ənvər Paşa Zaqafqaziya hökumətinin Brest-Litovsk sülh danışıqlarında iştirakı vacibliyini bildirir və bu zaman Zaqafqaziya hökumətinin tanınmasına Osmanlı dövlətinin kömək edəcəyini bildirirdi. Sonrakı dövrdə də Osmanlı dövləti Qafqazla bağlı siyasətini davam etdirməyə başladı.

Eyni zamanda, Azərbaycandan olan milli qüvvələr də Osmanlı dövlətindən yardım almaq üçün əlaqələr qurmağa başladılar. Bu işin reallaşmasında rus əsirliyindən qaçaraq Gəncəyə gəlmiş Osmanlı zabiti Hüsaməddin Tuğac bəyin rolu böyük idi. Az sonra Gəncədəki Milli Komitənin tapşırığı ilə (burada Nəsib bəy Yusifbəylinin böyük rolu vardı) Nağı Şeyxzamanlı, ziyalı Ömər Faiq Nemanzadə, acarların nümayəndəsi Cəlal Həmşizadə və axılkələkli Əbraim bəy birlikdə Türkiyəyə getdilər. Onların məqsədi icmaları adından türk ordusunu öz vətənlərinə dəvət etmək idi.

Az müddət sonra bu əlaqələrin ilk bəhrələri görünməyə başladı. Belə bir zamanda Ənvər Paşa bolşevik inqilabından sonra Qafqazda yaranmış vəziyyətdən bəhrələnib Berlin müqaviləsi ilə itirilmiş Qars, Ərdəhan və Batumu vətənə geri qaytarmaq, həm də Azərbaycan və Quzey Qafqazda Osmanlı himayəsində müstəqil dövlətlər qurmaq istiqamətində fəal siyasət tərəfdarı idi.

Bu dövrdə Osmanlı dövləti Qafqaza bir ordu göndərmək qərarını alınca, **Ənvər Paşa bu ordunun komandanlığına öz qardaşı Nurunu təyin etdi.** Əvvəlcə ona diviziya generalı rütbəsi, sonra Paşa (general) rütbəsi verildi. Bu təyinatdan sonra Nuru Paşa 1918-ci ilin martın 25-də Mosula, oradan isə Gəncəyə gəlib Qafqaz İslam Ordusunu yaratmağa başladı. **Qeyd edək ki, Nuru Paşa Gəncəyə mayın 25-də gəlib çıxmışdı.**



**Ənvər Paşa**

Azərbaycanın görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə Nuru Paşanın Gəncəyə gəlişini belə qeyd edirdi: "Cənubi Qafqaz nümayəndələri ilə türk nümayəndələri Batumda müzakirələr apararkən Nuru Paşa ilə bərabər tabeliyində olan bir çox zabitlər İran və Qarabağ istiqamətindən Gəncəyə daxil oldular. O zaman müdhiş bir anarxiyaya məruz **qalan, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru Paşanı göydən enmiş xilaskar bir mələk kimi qəbul etmişdi. Xalqın ona göstərdiyi istiqbal Gəncə tarixində görünməmişdi".**

Nuru Paşa Gəncəyə gəldikdən sonra burada və ətraf bölgələrdə olan müqavimət dəstələrini təşkilatlandırmağa başladı.

Maraqlıdır ki, Nuru Paşa Gəncədəki vəziyyəti öyrəndikdən sonra 3-cü Ordu komandanlığına çox dəyərli və tarixi əhəmiyyəti olan bir məlumat göndərmişdi. Nuru Paşa 3-cü Ordu komandanı Vəhib Paşaya yazdığı məlumatda bildirirdi: "Gəncədə Milli Kolordu (hərbi birlik) adında təşəkkül edən 600 nəfərlik bir qüvvət vardır. Bakıya qarşı da Kürdəmir stansiyasında knyaz Mağalov adında bir gürcü zabitinin komandası altında 400-ə qədər əsgər vardır. Bakı qətliamında gürcülərin müsəlmanlarla təşrixi-məsai etmələrinə bir əlamət müsəlmanlarla bir cəmilə olaraq Tiflisdən göndərilmiş olan bu əsgərlərin 300-dən ibarət olan gürcü qüvvələri də Tiflisə dönüblər.

Azərbaycanın milli bir ordu yaratmaq imkanı mövcuddur. Əsgərliyə layiq çox insan vardır. Muğan kimi bölgələrdə 10 000 000 kq-a qədər də buğda və ərzaq mövcuddur. Fəqət ordu təşkili üçün paltar, silah və cəbbəxana yoxdur. Paşa həzrətləri bu xüsusda yardım edilməsini rica edir və əlavə edir ki, əsgərin təlim və tərbiyəsi üçün buraya gələn əsgər heyəti Mosulda qaldı. Bir müddətə qədər gəlməyəcəklər. Təşəkkül edəcək əsgərə komanda etmək üzrə mümkün olduğu qədər müəllim-zabit və kiçik zabitin iza-

mım hassaten rica edirəm. Kıtaatı (hərbi hissələri) Osmaniyyənin Gəncəyə adəti vürudu muhtemet isə bilxassə mərkuz heyətə fövqəladə ehtiyacımız olacaq olur”.

3-cü Ordu komandanı Vəhib Paşa Nuru Paşaya 1918-ci ilin iyunun 2-də yazdığı cavab məktubunda bildirirdi: “Azərbaycan hökuməti Müstəqilliyi İslamiyyəsinin tələbi üzərinə islamları bolşevik təcavüzündən qurtarmaq üçün müxtəlif qüvvətli bir güclə Qazax üzərindən Gəncə istiqamətinə gedəcəyim. Bu mübrəzənin (batalyonun, taburun) süvarisi Qazax ilə Gəncə arasındakı istasyonlarda mübarizə edəcəkdir”.

1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında bağlanan müqavilənin 4-cü maddəsinə əsasən (məhz həmin bənddə Azərbaycanın Türkiyədən hərbi yardım istəməyi nəzərdə tutulurdu) Azərbaycan dövlətinin rəsmi müraciətinə uyğun olaraq Vəhib Paşa 1918-ci ilin iyunun 7-də belə bir əmr verdi: “5-ci Qafqaz Firqəsinin heyətinin Qazax üzərindən Gəncəyə göndərilməsini rica edirəm. Firqənin Ağstafa stansiyasından Gəncəyə qədər qatarla nəqliyyatı üçün indidən hazırlıq buyururuq və bunun üçün serizn icab edənləri (lazım olan hər şeyi) Qazaxa göndərin. Müsəlman zabitlərindən Gəncəli İbrahimzadə Nazim Əfəndi Ağstafa stansiyası ilə Gəncə arasındakı nəqliyyatı tənzim üçün əvvəlcə Batumdan Gəncəyə göndərilmişdi. Məmurlarımız Nazim əfəndi ilə təmas etsinlər, firqənin nəzdində ikinci Qafqaz Kolordusu (hərbi birliklər) telsiz stansiyanın verilməsini rica edirəm. Firqə indilik əmrinizdə və Gəncədə qalacaqdır, əfəndim”.

Batumda imzalanmış müqavilə əsasında 5-ci Qafqaz diviziyası Gümrü və Qazax istiqamətində iki qrup halında Qazaxa gəldi: “1-ci qrup – diviziya qərargahı; Onuncu Qafqaz alayı, Doqquzuncu Qafqaz alayına mənsub 26-cı tabur; dağ topçu taburu; istehkam bölüyü; teleqraf bölüyü; orkestr bölüyü; cəmi – 147 zabit; 2812 əsgər; 698 heyvan. 2-ci qrup – 13-cü Qafqaz alayı, güclü dağ topçu taburu; Səhiyyə bölüyü; 24-cü səyyar xəstəxana; səyyar mətbəx bölüyü: cəmi – 110 zabit, 2763 əsgər, 668 heyvan.

Qeyd edək ki, Beşinci Qafqaz Diviziyasının başında Mürsəl bəy (Mürsəl Paşa Baku), Baş Qərargahı rəyasətində isə Rüştü bəy dururdu.

Nuru Paşa ordu hissələrini qüvvətləndirmək üçün Gəncədə hərbi məktəb və qısa müddətli hərbi kurslar da təşkil etdi. Eyni zamanda, yaranmış Azərbaycan korpusuna bir neçə Azərbaycan türklərindən ibarət nizami alay, Dağıstan süvari alayı və bunlardan başqa Azərbaycanın hər tərəfindən gələn arasıkəsilməyən könüllülər də daxil olurdu. H. Baykara “Azərbaycan istiqlal mübarizəsi tarixi” kitabında yazırdı: “Hərbi təlim-tərbiyənin vaxtı az olduğu üçün vuruşma zamanı çoxlu tələfat olurdu. Buna baxmayaraq, döyüş meydanından əsla geri çəkilməyərək “Biz buraya ölməyə gəldik, dönməyə yox” – deyərək

vuruşur və getdikcə döyüş havasına alışırdılar. Azərbaycan korpusunun təşkilatı tamamlandıqdan sonra ona podpolkovnik Həbib bəy Səlimov komandanlıq edirdi”.



Nuru Paşa

**Rüştü bəy isə “Bakı yollarında” əsərində Qafqaz İslam Ordusu tərkibindəki qüvvələr haqqında da maraqlı məlumatlar verir:** “İlk yaradılışında cənub qrupunun qüvvələri belə idi: 4-cü piyada alayı (azəri alayı); 1-ci və 2-ci tabur, iki süvari bölüyü, azəri süvarilərindən ibarət daha bir bölük, iki qrup dağ və rus səhra topundan ibarət olmuşdur. Bundan başqa ordu alaylarına verilən Azərbaycan səhra topçu bölüyü öküzlə daşındığı üçün şosse yolundan kənara çıxa bilmirdi. Ancaq bu heyvanlar düşmənin zirehli avtomobillərini, zirehli qatarlarını qaçırmaqda və toplarını susdurmaqda çox yararlı olurdu. Əsasən, toplar Türkiyə cəbhəsini tərk edərək Rusiyaya dönən əsgərlərdən Azərbaycan partizanları tərəfindən zorla alınmışdı. Bu topların mərmiləri rus alaylarından qənimət olaraq ələ keçirilmiş və olduqca çox idi. Azərbaycan korpusunda olan silahlar Rusiyada istehsal olunmuşdu. Buna görə də mərmi sarıdan çətinlik çəkilmirdi. Amma Osmanlı ordusunda istifadə olunan silahlar üçün mərmi çatışmırdı. Döyüş zamanı Osmanlı ordusunu, Azərbaycan korpusunu Azərbaycan hökuməti və xalqı ərzaqla təmin edirdi”.

Müəllif xatirələrində daha bir maraqlı məlumatı da açıqlayır: “Bakıya hücum zamanı İslam Ordusu komandanlığından 5-ci Qafqaz diviziyası komandanlığına verilən bir əmrdə aşağıdakı qeydlər çox əhəmiyyətlidir: “Bakıya yaxın olan müsəlman kəndlərinin silahlı yardımı ilə bərabər, sizə ət, çörək və digər ərzaqla yardım edəcəkləri də şübhəsizdir. Baxmayaraq ki, indiki vaxtda siz həmin kəndlərdən 70 km aralıdasınız”.

Bakının düşmən qüvvələrdən azad edilməsi üçün Qafqaz İslam Ordusu ciddi hazırlıq işləri aparmışdı. Ordu müəyyən hazırlığını başa çatdırdıqdan sonra Bakıya doğru hərəkət etmək qərarına gəldi. 1918-ci ilin iyun ayında Gəncədən Göyçaya gələn 5-ci Qafqaz diviziyası komandanı buradakı vəziyyəti gördükdən sonra aşağıdakı məlumatı hazırlamışdı: “1. Bakı, Dərbənd və qarşımızdakı düşmən qüvvətinin 7 000 sayda olması; 2. Düşmənin qəti bir zərbə altında əzilməsi və Bakıya sıxışdırılması üçün; a) Geridə qalmış qüvvələrin diviziyaya birləşdirilməsi; b) Qazaxdakı 800 milis atlısının toplaşaraq cəbhəyə cəlb edilməsi;

c) keçmiş Qazax kaymakamı (qəza rəisi) Məhəmməd bəylə Daşsalahlı və hazırda Gəncədə olan Əli Nağı bəyin toplaya biləcəyi 4500 atlının cəbhəyə cəlb edilməsi; ç) Göyçay, Ağdaş, Bərdə atlılarının və Gəncədə toplanacaq atlı və piyadaların vacib cinahlara cəlb edilməsi; 3. Kürdəmir-Qaraməryəm xəttindəki zərbəni qəti endirdikdən sonra qüvvələri Şəki üzərindən Qubaya və ya Şuşaya göndərmək; 4. Yuxarıda sadalananların icrası üçün əmr hazırlamalı".

Bu hazırlıqlar başa çatdıqdan sonra Qafqaz İslam Ordusu qüvvələri iyun ayının 28-də düşmənə ilk zərbəni endirmiş, Qaraməryəmi, Göyçayı almış və sonra Ağsunu, Kürdəmiri azad etmişdir.

İyul ayının ortalarında xilaskar ordu iki istiqamətdən hücuma keçmişdi: birincisi – Ağsudan Şamaxıya, digəri də dəmiryol boyu ilə Hacıqabula – Bakıya doğru irəliləməkdə idi. İyulun sonlarında artıq xilaskar **türk və azərbaycanlı qüvvələr Bakıya xeyli yaxınlaşmışdılar. İyulun 31-də isə ordu hissələri Nəvahiyə, axşamüstü isə Qurd Qapısına (Volçi-Vorotaya) gəlib çatdılar.** Bakıya hücumu yekunlaşdırmaq üçün yenidən qüvvələr toplanılır və milis gücləri cəlb edilirdi.

**Həmin hadisələrdə iştirak etmiş tanınmış mühacir Məhəmməd Əli Rəsuloğlu öz xatirələrində yazırdı:** "Türk ordusu qərargahına xəritə, plan yetişdirmək üçün Müsavat Partiyası bütün qüvvəsilə çalışırdı. Hər gün dəniz və quru yolla türk ordusu qərargahı nəzdində bulunan dostumuz Abbas bəy vasitəsilə şəhərdəki əsgərlərin hərəkəti haqqında türk ordusu qərargahına lazımi məlumatlar verilirdi. Bolşeviklər bu məlumatın sürətlə öyrənilməsinə heyrət edirdilər"...

Bakıya qəti hücum protokolu hazırlanırdı. Bununla əlaqədar Qafqaz İslam Ordusunun komandiri Nuru Paşanın 9-10 sentyabrda verdiyi əmrdə bildirilirdi: "1. Bakıya qəti hücum üçün hazırlıq aparılacaq və bu hazırlıq haqqında 11.09.1918 tarixində, axşam saat 21-ə qədər mənə bildiriləcəkdir. 2. İndiyə qədər Şərq cəbhəsi komandanlığı əmrində olan 5-ci və 15-ci diviziyalar cənub qrupu halında mənə tabe olacaqdır...".

Həmin əmrdə digər qüvvələrin fəaliyyət istiqamətləri ilə yanaşı, belə göstəriş də vardı: "5-ci diviziya Hacı Həsən-Ermənikənd istiqamətində, 15-ci diviziyanın böyük bir hissəsi ilə Biləcəri-Ermənikənd istiqamətində, digər süvari və milislər Balaxanı-Sabunçu cəbhəsində Hövsandan Əhmədli və Keşlə üzərinə hücum edəcəklər. Azərbaycan qüvvələrinə aid zirehli qatar isə Heybət stansiyası yaxınlığında Volçi-Vorotadakı düşməni məşğul edəcək".

Sentyabrın 13-də axşam Qafqaz İslam Ordusu komandanının əsgərlərə "Sarıxaçlı kilsə istiqamətində irəli" müraciət əmri verildi. Bu əmr Bakıya qəti hücumun sentyabrın 14-də başlayacağını bildirirdi.

14 sentyabr səhər tezdən, hələ günəş çıxmamış xilaskar ordu Şubanı dağlarından enərək Yasamal yamaclarına çıxmış və əl bombaları ilə düşməni məhv edərək şəhərin girişində dayandı. Otuz altı saatlıq qanlı vuruşdan sonra bəyaz bayraqlı avtomobildə İran konsulu ilə bərabər döyüş yerinə gələn düşmənin qərb cəbhəsi üzrə erməni komandiri şəhəri təslim etməyə hazır olduqlarını bildirdilər.

Bakının azad edilməsində 17 erməni, 9 rus və 10 gürcü zabiti ilə 1.151 erməni, 383 rus, 4 ingilis və müxtəlif millətlərdən 113 əsgər əsir alındı. Eyni zamanda, düşmənin çoxlu sayda silah-sursatı da müsadirə edildi.


Mürsəl Paşa

Bakı uğrunda döyüşlərdə 15-ci diviziyanın və 5-ci Qafqaz diviziyasının 800-1000-ə qədər itkisi olmuşdu. Döyüşlərdə şəhid olanların sayı isə 1100-1200 olaraq göstərilir. Rüştü bəy öz xatirələrində yazırdı: “Beşinci Qafqaz Firqəsinin dörd ay yarımdan bəri Azərbaycanın istiqlalı uğrunda çarpışaraq verdiyi şəhid və mərhumların qanları ilə sulanan bu qardaş məmləkət torpaqları üzərində, Gəncədə, Göyçay, Ağsu-Şamaxı-Bakı şossesi yolu kənarında, Müsüslü-Kürdəmir-Karrar-Hacıqabul-Bakı dəmir yolu boyunda, Qarabağda və Kür çayı sahillərində xalqın ziyarətgahına çevrilən bir çox məzarlara təsadüf olunur ki, iştə bunlar millətinin köməyinə gəlmiş Anadolu məhmətçiyinin mübarək məzarlarıdır. Əksər yerlərdə məhmətçiklə bərabər yatan Azəri türkləri vardır”.

Rüştü bəyin xatirələrində çox təsirli məqamlar vardır: “Eyni irqə mənsub bu iki millət arasında əlaqə və münasibət axıdılan qanlarla bir qat daha yaxınlıq peyda etmişdir. Anadolu türklərinin Azərbaycanın istiqlalı uğrunda yapdıqları çətin və qanlı müharibələr əminəm ki, nəsildən-nəslə nəql ediləcək unudulmaz birgə dastan halında qalacaqdır”.

Bakının azad edilməsi Azərbaycan xalqında böyük ruh yüksəkliyi yaratdı. Azərbaycanın görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə yazırdı: “O zaman biz İstanbulda idik. Şərqi Avropa dövlətlərinin iştirakı ilə toplanacaq konfransda iştirak üçün digər Qafqaziyə cümhuriyyətləri ilə bərabər Azərbaycan Cümhuriyyətini təmsil edən rəyasət heyətinin tərkibində idik. O dövrün Hərbiyyə naziri və Baş Komandan vəkili olan Ənvər Paşa həzrətləri telefon etdi: “Əmin bəy, Bakı alındı!”. Bu qısa xəbərin məndə tövlid etdiyi təsiri qabil deyil, təsvir edə bilmirəm. O təsiri hələ unuda bilmirəm”...



Rüştü bəy

Türklərin Bakıya hücumu Azərbaycanın tanınmış ziyalılarında böyük ruh yüksəkliyi yaratmışdı. Tanınmış şair Əhməd Cavad 1918-ci ilin iyulunda yazdığı "Bismillah!" şerində xoş və səmimi hisslərini belə açıqlayırdı:

***Atıldı dağlardan zəfər topları,***
***Yürüdü irəli əsgər, Bismillah!***
***O Xan sarayında çiçəkli bir qız***
***Bəkliyor bizləri zəfər, Bismillah!***

***Ey Bakı, sən qorxma, gəldin, gələli,***
***Səninçin atıldıq daim irəli!***
***Sağ qalanlar annələrə təsəlli,***
***Şəhidlərin ruhu gülər, Bismillah!***

Xilaskar türk əsgərlərinin Bakıya gəlişi hamını sevindirirdi. Türklərin gəlişinə şerlər yazılır, mahnılar qoşulurdu. Tanınmış şair Abdulla Şaiqin yazdığı intizar və məhəbbət dolu misralar türklərin gəlişini gözləyən minlərlə azərbaycanlının ürəyindən idi:

***"Neçin böylə gecikdin!***
***Sənsiz qəlbim qırıq, sönük,***
***Çeynənmiş, xırdalanmış.***
***Ömür şüşəm daşa dəymiş,***
***Həyatım parçalanmış...***
***...Başqasını istəməm də, ey türk,***
***Tez gəl, sən gəl, sən!"***

Bakının azad edilməsi münasibəti ilə noyabr ayının 10-da Yay klubunun zalında (indiki Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası) Nuru Paşanın şərəfinə böyük bir ziyafət verildi.

Tanınmış bəstəkar və jurnalist Üzeyir Hacıbəyli bu münasibətlə yazırdı: “Nuru Paşa həzrətlərinin salona vürudu əsnasında musiqi orkestri tərənnümə başlayaraq məclis əhli ehtiramla Paşa həzrətlərini səmimiyyətlə salamladılar, hər kəs badə əlində miz başında özünəməxsus olan yerini tutub ziyafət başlandı. Yemək əsnasında Baş nazirimiz Fətəli xan Xoyski həzrətləri birinci olaraq bəlağətli bir nitq söyləyərək, Azərbaycan türklərinin əsarət bəndindən xilası səadətinə nail olması yolunda tökülən Osmanlı Türk qanına işarə ilə “Bu qan və bu qan tökülən mübarək yerlər heç bir vaxt unudulmaz və xatirdən çıxmaz” buyurdu. Azərbaycan türklərinin təşəkkürlərini Paşa həzrətlərinə bildirib qədəh qaldırdı. O halda bütün həzərat ayağa duraraq müzəffər və şanlı komandanımız Paşa həzrətlərinin şərəfinə şərbətnuş olub sürətli alqışlarla izhari məsərrət və şadyanalıq etdilər...”.

Ü.Hacıbəyli ziyafət məclisində Azərbaycan Milli Şurasının Sədri Məhəmməd Əmin Rəsulzadənin də çıxışının alqışlarla qarşılandığını qeyd edirdi: “Rəsulzadə nitqinə davam edərək “Siyasi üfüqdə qara buludlar görünən kimidir, lakin bu qara buludlara qarşı Nurularımızın zülmətqovan nuru vardır” dedikdə bütün məclis əhli ayağa qalxıb Paşa həzrətlərini xüsusi bir təzimlə alqışlamağa başladılar”.

Məclisdə çıxış edən Ə.Ağaoğlu isə bu sözləri söyləmişdi: “Mən Bakını İstanbulda və İstanbulu Bakıda görüb özümü o qədər bəxtiyar görürəm ki, daha ölsəm o qədər də qəmim yoxdur, dünyadan kam almış kimiyəm”.

Ü.Hacıbəyli yazırdı: “Bu qədər nitq və alqışlara cavab olaraq Nuru Paşa həzrətləri gözəl İstanbul şivəsi ilə ruhumuza ləzzət verən və məzmunca qəlbimizi bir çox əndişələrdən təmiz etməklə bəlağətli və səlis nitqi ilə məclis əhlini şərəfyab və minnətdar etdi”.

Ziyafət məclisində tanınmış tədqiqatçı Salman Mümtaz Nuru Paşaya ithaf etdiyi “Öyün, millət” şerini oxudu:

***Ziyasız, rus zülmündən o yüksək***
***Ruhun ölmüşdü,***
***Tökürdü şişəyə hərdəm, şərabi-nab***
***Tək qanın.***
***Qızılgültək açıl, gül,***
***Gör ki, türkün şanlı ordusu,***
***Rövnəq ərşə nəsib etmiş***
***Böyük Osmanlı ünvanını.***

Tanınmış aktyor **Abbas Mirzə Şərifzadə** isə Osmanlı generallarına məxsus geyimdə zala daxil olub Ənvər Paşanın qiyafəsində monoloq söylədi: “Ey qəhrəman türklərin igid balaları! Siz şanlı türk övladları olduğunuzu Bakının Qurtuluşuna varmaqla sübut etdiniz...”.

**Ziyafətdə Baş Nazir Fətəli xan Xoyski “Ədirnənin fəthi” əsərinin müəllifi, gənc dramaturq Cəfər Cabbarlını Nuru Paşaya təqdim etmişdi.**

Qeyd edək ki, böyük dramaturq Cəfər Cabbarlı 1919-cu ildə Bakının Qurtuluşunun birillik yubileyi münasibəti ilə “Bakı müharibəsi” pyesini yazmış və bu əsər həmin ilin sentyabrın 16-da Abbas Mirzə Şərifzadənin rəhbərliyi və iştirakı ilə tamaşaya qoyulmuşdu.

1919-cu ildə Bakının Qurtuluşu münasibəti ilə tanınmış ziyalı və jurnalist Mirzə Bala Məmmədzadə də “Bakı uğrunda müharibə” pyesini yazmışdı.

1919-cu ildə isə Bakıda Çəmbərəkənd qəbiristanlığında türk şəhidlərinə abidə qoyulması ilə bağlı təməl daşının atılması mərasimi keçirilmiş və abidənin maketi də hazırlanmışdı.

1920-ci ilin 27 Aprelində Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonra həmin abidənin də açılışı mümkün olmadı.

Təəssüflər ki, 1918-ci ilin noyabrın 17-də Müttəfiq Dövlətlər Birliyinin hərbi hissələrinin Bakıya daxil olması ilə əlaqədar Qafqaz İslam Ordusu Azərbaycandan geri çağırıldı.



*Bakının xilaskarı*
*general Nuru Paşa*

# NURU PAŞA KİLLİGİL

***(1889-1949)***

Bakının xilaskarı kimi tarixə daxil olmuş Nuru Paşa Killigil 1889-cu ildə Türkiyənin İstanbul şəhərində anadan olub. Tanınmış hərbçi Ənvər Paşanın qardaşıdır. Hərbi məktəbdə təhsil alıb, buradan zabit olaraq məzun olub. 1909-cu ildə 3-cü Ordu əmrinə, 1910-cu ildə isə padşah xidmətindəki piyada bölüyünə, 1912-ci ildə isə 1-ci Kolordu (Korpus, hərbi birləşmə) komandanlığına, 1914-cü ildə isə Vyana Ataşmilliterliyinə alınıb. 1915-ci ilin fevralından 1918-ci ilin əvvəllərinə qədər Afrika Qrupları komandanı olub. 1918-ci ilin yanvarın 3-də Qafqaz İslam Ordusu komandanı olaraq çalışmağa başlayıb və general rütbəsi ilə həmin ilin mayında Gəncəyə gəlib. Qafqaz İslam Ordusunun yaradılmasına çalışıb. Birinci Dünya müharibəsinin sonuna qədər bu vəzifədə qalıb. Rütbədə isə fəxri generaldan ordu generallığına yüksəlib. 1919-cu ildə İngiltərə hökuməti tərəfindən həbs edilib. Sonradan Batumdakı hərbi cəza evindən Azərbaycana qaçırılıb. M.Atatürkün başçılıq etdiyi milli mücadilədə 1920-ci ilin iyununda tabeliyindəki qüvvələrlə Şərq Cəbhəsi komandanlığına könüllü qoşularaq ermənilərə qarşı aparılan təərrüz hərəkatında 12-ci Tümənin sağ qanadını təşkil edib və Sarıkamışın geri qaytarılmasında vəzifə alıb. Daha sonra Şərq Cəbhəsi komandanlığında çalışıb. 1923-cü ilin 4 oktyabrında təqaüdə çıxıb. Əlavə edək ki, İkinci Dünya müharibəsi illərində Almaniyada əsirlikdə olan müsəlman-türk xalqlarından ibarət legionların (könüllü birliklərin) yaradılmasında türk generalı Ərkilət Paşa ilə birgə Nuru Paşanın da adına rast gəlinir. Bu legionerlərin ölümdən xilas edilib bolşevizmə qarşı savaş aparmasında Nuru Paşanın xüsusi rolu olmuşdur.

1949-cu ilin martın 2-də, saat 16.30-da İstanbulda silah fabrikinin partlayışı zamanı 27 nəfərlə birlikdə Nuru Paşa da həlak olmuşdur.



*Bakının Qurtuluşunda fədakarlıq göstərmiş Mürsəl Paşa*



*Ənvər Paşa (soldan) və Nuru Paşa (sağdan) ataları ilə birgə*



*Nuru Paşanın atası Hacı Əhməd Paşanın 1919-cu ildə Şəkiyə ziyarəti. Şəkildəkilər (soldan sağa): fabrik sahibi Yaqub bəy (bolşeviklər onu sonradan güllələyiblər); fabrik sahibi kiçik Yaqub bəy; Şəki bölgə komandiri Yarbay Nəcib bəy; tacir (adı bilinmir); Hacı Əhməd Paşa; Şəki Bələdiyyə Başqanı Aran bəy; Hacı Əhməd Paşanın yavəri (adı bilinmir); Mehmet (Məmi) bəy Əhmədoğlu.*

*Nuru Paşa Gəncədə azərbaycanlılar arasında*





*Qafqaz İslam Ordusunun zabitləri*



*Nuru Paşa Yelendorfda almanlarla*

# Qafqaz İslam Ordusunun komandanları



*Kazım Qarabəkir*

*Nazim Bəy*





*Qafqaz İslam Ordusunun zabit və əsgərləri*



*Xilaskar ordu Bakıda*

# GƏNCƏDƏ İZLƏR

**Ərazisi 2.848 km²-dir. Azərbaycanın ikinci böyük şəhəridir. 332,6 mindən çox əhalisi var.**

**Rusiya imperatorluğu dönəmində Yelizavetpol, 1920-1935-ci illərdə Gəncə, 1935-1991-ci illərdə Kirovabad, daha sonra yenidən Gəncə adlandırılıb. 1804-cü ildə Rusiya imperatorluğu tərəfindən işğal edilmişdir. "Gəncə" sözünün mənası Azərbaycan türkcəsində "gencə" (Türkiyə türkcəsində "geniş" yer", "genişcə") sözündən ortaya çıxıb. Bu söz sonradan "Gəncə" olaraq işlədilib.**

Nuru Paşa 1918-ci ilin mayın 25-də qatarla Gəncəyə çatdı. Gəncə camaatı onu böyük təntənə ilə qarşıladı. Azərbaycanın görkəmli dövlət xadimi M. Ə. Rəsulzadə yazırdı: "...Gəncə Nuru Paşanı göydən xilaskar bir mələk kimi qarşılamışdı. Xalqın ona yapdığı istiqbal Gəncə tarixində görünməmişdir".

1918-ci ilin iyun ayının 15-də türk hərbi hissələri artıq Gəncəyə gəlib çatdı. Onların böyük təmtəraqla qarşılanmasını N.Şeyxzamanlı belə xatırlayırdı: "Onları Gəncə xalqı çox təntənəli qarşıladı. Qarşılanma mərasimi aşağıdakı kimi olmuşdu: Gəncə xalqı şəhər meydanına toplaşmışdı. Dövlət idarələri və məktəbləri həmin gün işləmirdi. Ona görə də müəllimlər dəstə halında öz yerlərini tutmuşdular. Müharibə illərində Türkiyənin ruslar tərəfindən işğal edilmiş Şərq vilayətindən Xeyriyyə Cəmiyyəti tərəfindən toplanaraq Azərbaycanın bir çox şəhərlərindəki uşaq evlərində saxlanan sahibsiz uşaqlardan dörd yaşından yuxarı olanlar da meydanda dəstə halında düzülmüşdülər. Meydanın ətrafını əhatə etmiş əhali sevincdən gözləri yaşarmış halda əsgərlərə baxırdılar".

Nuru Paşanın təşəbbüsü ilə qısa müddətdə hərbi məktəb açıldı və Azərbaycan ordusuna zabitlər hazırlanmağa başlanıldı.




*Gəncə Dəmiryol Vağzalı. Nuru Paşa 1918-ci ilin mayın 25-də burada qarşılanmışdı.*



*Gəncə Dəmiryol Vağzalı*




***Nuru Paşanın yaxın dostu olmuş Nağı Şeyxzamanlının yaşadığı ev.***



***Nuru Paşa 1918-ci ildə Gəncədə olarkən bu evdə yaşayıb.***



*Nuru Paşa bu evdə yaşayıb.*

*Nuru Paşanın yaşadığı ev.*





*Nuru Paşa bu otaqda yaşayırdı.*

*Nuru Paşa qonaqları bu otaqda qəbul edirdi.*





*N.Şeyxzamanlılar nəslinin davamçıları. Onlar Nuru Paşanın gəlb bu evdə qonaq qalması ilə qürur hissi keçirirlər.*



*Gəncədə məşhur Şah Abbas məscidi. Məhs burada olan ziyalılar Nuru Paşaya böyük mənəvi dəstək vermişdilər.*



*Şəhər meydanı ərazisi*



*Şəhər meydanı ərazisində Nuru Paşanın təntənəli qarşılanma mərasimi olmuşdu.*



*Gəncəlilər indi də buranı tarixi bir məkan olaraq qəbul edirlər.*



*Gəncədə Nuru Paşanın yaratdığı hərbi məktəb bu binada olub. Hazırda Cavad Xan küçəsindəki həmin binada hərbi hissə yerləşir.*

*Nuru Paşanın yaratdığı hərbi məktəbin binası. Bu milli hərbi məktəbin ilk buraxılışı 1918-ci ilin oktyabr ayında olub.*





*Azərbaycan Milli Şurası və Nazirlər Şurası bu binada fəaliyyət göstərib. Toplantılar məhz burada keçirilirdi. Qafqaz İslam Ordusuna və Nuru Paşaya dəstək verilməsi burada qanuni əsasını tapırdı.*

*Bu yerdə hazırda Azərbaycan Dövlət Aqrar İnstitutu yerləşir.*





***Bu zalda Nuru Paşanın da iştirak etdiyi iclaslar keçirilirdi.***

***Gəncə Aqrar Elm və Təhsil Muzeyinin binası***





***Gəncə Aqrar Elm və Təhsil Muzeyinin bu binasında Azərbaycanın ilk Baş Naziri Fətəli xan Xoyskinin iş otağı yerləşirdi və Nuru Paşa burada tez-tez olurdu.***




***Burada Nuru Paşanın və Qafqaz İslam Ordusunun fotoları qorunub saxlanılır.***



***Bu yerdə Qafqaz İslam Ordusunun zabitləri yaşayırdı. Hazırda burada"Akademiya" hazırlıq kursları yerləşir.***



***Bu pilləkənlərlə türk zabitləri ikinci mərtəbəyə qalxıb oradakı otaqlarda yaşayırdılar.***



*Türk zabitlərinin yaşadığı binanın dəhlizi*



*Bura türk əsgərlərinin yaşaması və fəaliyyətləri üçün bir qərargah idi.*



*Gəncənin erməni məhəlləsi*

*Buradakı ermənilər birləşib Qafqaz İslam Ordusuna qarşı vuruşurdu. Qəhrəman türk əsgərləri onları məğlub etdi. Gəncə bütövlükdə Azərbaycan hökumətinin nəzarətinə keçdi.*





*Böyük şair Nizami Gəncəvinin məqbərəsi.*



*Bu məqbərənin ətrafı Şıx düzü adlanırdı.*



*1918-ci ildə Qafqaz İslam Ordusunun əsgərləri Şıx düzündəki çadırlarda yaşayırdılar.*

*Türk əsgərlərinin çadırlarda yaşadığı yer*



# YEVLAXDA

**Rayon 1935-ci ildə təşkil edilib. Ötən əsrin 80-ci illərində stansiya kimi salınan və uzun müddət əhali tərəfindən “Vağzal” kimi tanınan Yevlax XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid rəsmi sənədlərdə Yelizavetpol quberniyasının Yevlax stansiyası kimi tanınıb. Ərazisi 1537 km$^2$, əhalisi 127,4 min nəfərdir. Yevlax rayonu ərazisində buranın qədim yaşayış məskəni olmasını sübut edən bir sıra tarixi abidələr var.**

Nuru Paşa ilk dəfə olaraq 1918-ci ilin may ayının 24-də Qarabağdan Yevlağa gəlmiş və burada böyük izdihamla, saygı ilə qarşılanmışdı. Tanınmış azərbaycanlı mücahid, uzun illər Türkiyədə mühacir həyatı yaşamış Nağı Şeyxzamanlı xatirələrində yazırdı: “Gəncədə xəbər aldım ki, Nuru Paşa Qarabağa gəlibdir, bir gün sonra da Gəncədə olacaqdır. Mən dərhal ertəsi gün Yevlax stansiyasına yola düşdüm. Yevlaxda bir saat gözlədik. Gəncədən gedən heyət Nuru Paşanı Qarabağda qarşılamışdı. Çoxsaylı bir süvari dəstəsi aralandı, Nuru Paşa Yevlax stansiyasına çatdı”.

Bu fotolar Yevlax Dəmiryol Stansiyasının görüntülərini əks etdirir. Nuru Paşanı 1918-ci ildə məhz burada qarşılamışdılar.



***Yevlax Dəmiryol Stansiyası. Nuru Paşa 1918-ci ilin may ayının 24-də buraya gəlmişdi.***





# AĞDAŞDA

**Ağdaş Azərbaycanın mərkəzi rayonlarından biridir. Ləki stansiyası ilə birlikdə 72 kəndi var. Bakıdan 249 km aralıda yerləşir. Əhalisi 108,7 mindən çoxdur. Ərazisi 1050 km²-dir.**

Nuru Paşanın ağdaşlılarla əlaqəsi haqqında da məlumatlar vardır. Onun türk komandiri Nazim bəyə göndərdiyi teleqramda bildirilir ki, o, Ağdaş əhalisinin nümayəndələri ilə görüşmüş və onların 2-3 min könüllü toplamaq istəyini öyrənmişdi. Məlum olur ki, Nuru Paşa Ağdaşda toplanan bu könüllülərə böyük inam bəsləyirdi. Və ehtimal ki, o, Ağdaş-Ləki yolu ilə geri dönmüşdü. Nazim bəy isə Ağdaşın Ləki stansiyasına gedib həm Göyçayla, həm də Ucarla əlaqə yaratmışdı.



***Ağdaşın Ləki Dəmiryol Stansiyası***



***Bura tarixi bir yerdir. Türk zabit və əsgərləri bu yerdə də olublar.***

# GÖYÇAYDA

**Ərazisi 739 km², əhalisi 119,4 mindən çoxdur. Rayonun adı türk mənşəli söz olub, sahilində yerləşdiyi Göyçay çayının adından götürülüb. 1867-ci ilin dekabr ayında çar hökuməti tərəfindən Bakı quberniyasının tərkibində Göyçay qəzası yaranıb. Sovet hakimiyyəti dövründə – 1930-cu il avqustun 8-də Göyçay rayonu təşkil edilib. Rayon mərkəzi Göyçay şəhəri Bakı-Qazax magistralının 216-cı km-də yerləşir.**

Göyçayın azad edilməsi çox ağır döyüş şəraitində baş verirdi. Bundan ötrü Nuru Paşa 5-ci Qafqaz firqəsinin qərargahının Göyçaya köçürülməsini vacib sayırdı. Cəbhə bölgəsindəki qoşun hissələrinin çevik idarə olunmasını təmin etmək üçün o bu qərarında israrlı idi.

Bununla əlaqədar Gəncədən yola düşən 5-ci Qafqaz firqəsinin qərargahı iyunun 20-də Göyçayda yerləşdirildi.

1918-ci ilin iyunun 27-30-u arasında Göyçay və Qaraməryəmdəki döyüşlər Qafqaz İslam Ordusunun qələbəsi ilə başa çatdı.



***Göyçayın şimalında yerləşən Ərvan (bəzən Arvan da deyirlər) dərəsi. Burada 1918-ci ildə ermənilərlə döyüşlər olub. Bu yerə "Qısa dərə" də deyilir.***

***Həmin döyüşlərdə həlak olan bir türk əsgərinin məzarı burada qorunub saxlanılır.***





*Bura da tarixi bir yerdir. M.Ə.Rəsulzadə küçəsi, 140 ünvanlı bu ev bir zamanlar Sadıq bəyə məxsus olub.*



*Şəhəri ermənilərdən azad edən Nuru Paşa 5 gün bu mənzildə yaşayıb, döyüşlərə başçılıq edib.*




***Göyçay, Nəriman Nərimanov küçəsi 52. Burada hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə İdarə yerləşir. 1918-ci ildə isə bu yer Sandro adlı bir erməniyə məxsus olub. Erməni hərbi quldur dəstələri bu evi özlərinə qərargah edib, Qafqaz İslam Ordusuna qarşı müqavimət göstəriblər.***

***Göyçaydakı bu çinar ağacının da maraqlı tarixi var. Ermənilərin atdığı bir mərmi çinarı parçalasa da, sonradan o pöhrə verib. Sakinlər bu gün də o fikirdədirlər ki, Nuru Paşa həmin çinarı da düşmənlərdən azad edib, qoruyub, yaşadıb.***





*Rayondakı M.Ə.Rəsulzadə küçəsi 72 ünvanda yerləşən 11 saylı uşaq bağçası. Bu yerdə vaxtilə türk şəhidlərinin çoxlu sayda qəbirləri olub. Bəziləri 11, bəziləri isə 30 sayda məzarın olduğunu bildirirlər.*

*Sovet hakimiyyəti dövründə buradakı qəbirləri yox etmişlər. 1961-ci ildə həmin yerdə uşaq bağçası tikilib.*





*Uşaq bağçasının tərbiyəçisi Sədaqət Quliyeva deyir: "Bura qəbir yeridir. Buradakı əsgər Zabit əfəndi olub. İndi biz həmin yerə Zabit Piri deyirik. Rayon camaatı buraya müqəddəs yer kimi baxır".*

*Sovet hakimiyyəti illərində bu qəbir yerləri asfaltlanmışdır. İndi isə həmin yerin torpağı çökür.*





***Bu güllər isə türk qəbirlərinin üstündə bitib.***

***İndi asfalt dağıldıqca qəbir yerləri çökür.***





***Göyçayın Bığır kəndi. Nuru Paşa ermənilərə qarşı olan ən ağır döyüşlərdən birini bu bölgədə aparıb.***

***Bu isə türk zabit və əsgərlərinini xatirəsinə qoyulan abidədir. Göyçayın azad edilməsində 12 zabit, 235 çavuş və əsgər döyüşüb, əbədiyyətə qovuşub.***





*Göyçay rayonunun Bığır kəndində türk məzarı. Bu məzarda Qədir əfəndi dəfn edilib.*

*Bığır kəndində olan Türk dağı şəhid məzarı*





*Qaraməryəm kəndi.*
*Qafqaz İslam Ordusunun və Nuru Paşanın ermənilərə qarşı döyüş apardığı kənddir. Bu kəndi türk əsgərləri qəhrəmanlıqla döyüşərək azad ediblər.*



*Qaraməryəm – Müsüslü şosse yolu. Qəhrəman türk əsgərləri bu yolla keçərək Bakıya doğru irəliləyiblər.*

# UCARDA

**Sahəsi 867 $km^2$-dir. Əhalisi 87,7 mindən çoxdur. Rayon olaraq 24 yanvar 1939-cu ildə təşkil edilib. 1846-cı ildə Şamaxı quberniyasının, 1867-ci ildə isə Göyçay qəzasının tərkibində olub.**

1918-ci ildə Nuru Paşa Gəncəyə gəldikdən sonra. Ucar ərazisində ermənilərə qarşı savaşmaq üçün könüllü dəstələr toplaşmışdı. Eyni zamanda Ucar yaxınlığındakı Müsüslüyə doğru erməni silahlılarının da böyük bir qüvvəsi hərəkət edirdi.

Müsüslünün isə dəmiryolu stansiyası olması baxımından əhəmiyyəti böyük idi. Ermənilər buranı nəzarətə götürməklə dəmir yolu ilə rahat hərəkət edə bilərdilər. Qafqaz İslam Ordusunun düşünülmüş və qətiyyətli hərbi fəaliyyəti bolşevik-daşnak qüvvələrinin planlarını pozurdu.



***Müsüslü Dəmiryolu Stansiyasında ağır döyüşlər gedib.***



***Türklərə qarşı savaşan erməni quldur dəstələri məğlub olduqlarını başa düşüb bu dəmir yolu ilə geriyə - Bakıya çəkiliblər.***



*Ucar-Bakı şosse yolunun sağında yerli əhali tərəfindən "Ermənibatan yer" adlanan bu ərazi Müsüslü kəndidir.*

*Bura bir zamanlar bataqlıq, nohur yeri olub. Qəhrəman türk əsgərləri buradakı ağır şəraitdə gedən döyüşlərdə erməni-daşnak qüvvələrini məhv edib bataqlığa doldurmuşlar. O zamandan buranın adı "Ermənibatan yer" adlanır.*



# KÜRDƏMİRDƏ

**Ərazisi 1.932 km$^2$, əhalisi 115,6 mindən çoxdur. Rayonun adı ərazisindən axan Kür çayının adı ilə adlandırılıb. Əhalisi, əsasən, kənd təsərrüfatı ilə məşğul olur.**

Kürdəmirin azad edilməsi uğrunda ağır döyüşlər gedib. Bu döyüşlərdə Lazar Biçeraxovun başçılıq etdiyi hərbi dəstə bolşevik-daşnak qüvvələrinə yardım edirdi. Aparılan döyüşlərdə H.Səlimovun başçılıq etdiyi yerli könüllü qüvvələr də böyük fədakarlıq göstərirdi.

1918-ci ilin iyul ayının 10-da Kürdəmir düşmən qüvvələrdən azad edildi. Qeyd edək ki, Kürdəmirə yaxın olan Karrar ərazisində də ermənilərlə ciddi toqquşmalar olmuş, türklər uğurlu döyüşlər aparmışdılar.




*Kürdəmir Dəmiryol Stansiyası*

*Nuru Paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusu burada qanlı döyüşlər aparıb, düşməni geri çəkilməyə məcbur edib. Erməni daşnakları bu məğlubiyyətdən sonra geriyə - Hacıqabula tərəf gediblər.*



# HACIQABULDA

**Ərazisi 1641,40 km$^2$, əhalisi 74,7 mindən çoxdur. 1990-cı ildə Azərbaycanın şərqində yaradılan ərazi-inzibati bölgələrdən biridir. "Hacıqabul" sözünün mənası "Allah sənin ziyarətini qəbul etsin" deməkdir. Rayonun mərkəzi olan Hacıqabulun tarixi IX əsrdən başlayır. Hacıqabul rayonu Şirvan düzənliyinin və Hərmi silsiləsinin cənub-şərq hissəsini əhatə edir.**

**Nəvai qəsəbəsi Hacıqabul rayonunda olan 23 bələdiyyədən biridir. Əhalisi 2293 nəfərdir. Nəvai kənd bələdiyyəsində isə 3354 nəfər yaşayır.**

**Padar kənd bələdiyyəsində 744, Qarasu qəsəbə bələdiyyəsində isə 2407 nəfər yaşayır.**

Hacıqabulun azad edilməsi də qanlı döyüşlərlə başa çatıb. Burada yaşayan insanlar ata-babalarından eşitdikləri hadisələri, türk əsgərlərinin fədakarlığı haqqında bilgilərini yaddaşlarında bu gün də yaşadırlar. Hacıqbul həm də strateji əhəmiyyəti olan bir yer olub. Odur ki, buranı "Bakının qapısı" adlandırırlar.



*Hacıqabul Dəmiryol Stansiyası*

*Burada Türk əsgərləri ermənilərə qarşı qəhrəmanlıqla döyüşüblər.*





***Qarasu kəndi.***
***Bu ərazilərdə ermənilərə qarşı döyüşlər olub.***



***Şamaxı istiqamətindən gələn türklər bu yerdə erməniləri məğlub edib. Döyüşlərdə türklərin də itkiləri olub.***



*Hacıqabulun Padar inzibati ərazisi. Türk əsgərləri döyüşərək bu kəndi də azad etmişlər. Burada da döyüşlərdə həlak olmuş türklərin qəbirləri olub.*

*Sakinlər danışır ki, bu məzarıstanlıqda türk əsgərləri dəfn olunub. Sovet hakimiyyəti illərində o məzarların yeri yox edilib. Yerli sakin bu qəbir daşının türk əsgərlərinə məxsus olduğunu bildirir.*






***Bura isə türklərin 1918-ci ilin iyulun 4-də azad etdikləri Qarasu stansiyasıdır. Stansiya 1883-cü ildə tikilib. Erməni daşnaklar buradan qatarla geriyə çəkilməyə məcbur olublar.***

***Qarasu kəndinin ümumi görüntüsü***





***Hacıqabulun ən böyük kəndlərindən biri Nəvaidir. Burada vaxtilə 550 ev olub. Ermənilər kənddə 955-ə qədər insanı qətlə yetirib. Onlardan 555-ə qədəri kişi, 260-a qədəri qadın, digərləri isə azyaşlı uşaqlar olub.***

***Dəmiryol xəttinə yaxın olduğundan ermənilər tez-tez bu kəndə girib qırğınlar törədirmiş. Qəhrəman türk əsgərləri 1918-ci ilin iyulun 31-də Nəvaini düşmənlərdən azad ediblər.***





*Nəvai qəbiristanlığında 3 türk əsgərinin qəbri qorunub saxlanılır.*

*Nəvaililər Sovet rejiminin ağır təqiblərinə baxmayaraq, bu məzarları qoruyub saxlamağı bacarıblar.*



# QOBUSTANDA

**Qobustan rayonunun ərazisi 1369,4 km², əhalisi 46,1 mindən çoxdur. 1990-cı ildə yaradılıb. Mərkəzi Qobustan şəhəridir (əvvəlki adı Mərəzə olub). Azərbaycanın Şirvan adlanan tarixi vilayətinin inzibati rayonlarından biridir.**

**Qobustan rayonunun 26-ya qədər kəndi vardır:Təklə, Bədəlli, Ərəbşalbaş, Göydərə, Poladlı, Çuxanlı, Sədəfli, Nabur, Dərəkənd, Bəklə və s.**

**Qobustan rayonu Şamaxıdan şərqdə - Bakıdan 101 km aralıda yerləşir.**

Qobustan ərazisindəki "Acıdərə" deyilən yerdə ciddi döyüşlər gedib. Burada türklər də itki vermişdir. Bu yerdə şəhid olan bir əsgərin məzarını isə qonşu kəndlərdəki əhali böyük sayğı ilə qoruyub saxlamışdır. Azərbaycan müstəqil olduqdan sonra burada böyük abadlıq işləri aparılıb, şəhid türk əsgərinin məzarı isə əsl ziyarətgaha çevrilib.


TENHA MEZAR
BAHTİYAR VAHABZADE
TƏK MƏZAR TÜRK



*Qobustan rayonunun Acıdərə ərazisində (Qeyd edək ki, bura bir vaxtlar Şamaxının inzibati ərazisi olub) türk əsgərinin məzarı qorunmaqdadır.*



*Əraziyə daxil olduqda ilk olaraq abidə, ondan 15-20 metr aralıda isə məzar görünür.*



***Bura isə türk şəhid məzarıdır.***

***Bu məzar haqqında çox yazılıb və şeirlər ithaf olunub. Yerli sakin deyir ki, bu türk məzarının üstünü düzəltdirən və qoruyan Qobustanın Təklə kəndində yaşamış Məlikməmməd kişi olub.***





*Acıdərə ərazisi.*



*Acıdərə adlanan bu ərazidə türklər ermənilərlə savaşıb və əhalini xilas ediblər.*



*Təklə kəndinin sakinləri sovet hakimiyyəti illərində türk əsgərinin məzarını qorumuş Məlikməmməd kişi haqqında rəğbətlə danışırlar.*

*Məlikməmməd kişinin evindəyik. Nəvəsi Məmmədağa Məlikov deyir: "Babam Məlikməmməd Tağıyev 1880-ci ildə anadan olub. 1937-ci ildə həbs edilib, Sibirə - Maqadana göndərilib. Təxminən 1940-1941-ci illərdə orada həlak olub".*





***Qobustan rayon mərkəzindən xeyli aralıda, dağlıq ərazidə yerləşən bu kənd Ərəbşalbaş adlanır. Kəndin girəcəyində bir ağ günbəz var. Günbəzin içərisində türk qəbirləri qorunub saxlanılır. Daşların üstündə yazılar olmasa da, yerli sakinlər bu məzarların türk əsgərlərinə aid olduğunu bildirirlər. Bu günbəzi isə kənd sakini Nisə xanımın tikdirdiyi söylənilir.***



***Ərəbşalbaş kəndi ərazisindəki türk şəhid məzarları***



*Ərəbşalbaş kəndindəki bir türk məzarı.*

*Kənddəki bu türk məzarı haqqında məlumatı bizə axund Famis Quliyev verir. Onun məlumatına görə, bu qəbri abadlaşdıran kənd sakini hazırda Bakıda yaşayan Hacı Yarağanın oğlu Famildir. O, bu xeyirxah işi görüb. Kənd sakinləri isə onların xilaskarı olan qəhrəman türk əsgərinə böyük rəğbətlərini bildirirlər.*





***Kənd orta məktəbinin müəllimi Muğanşah Əzimov fəxrlə bu sözləri deyir: "O türklər bizim xilaskarımızdır. Bu torpaqları onlar azad ediblər".***

***Orta məktəb şagirdi Zahid Teymurov deyir: "Biz bura müqəddəs yer kimi baxırıq. Ehtiram əlaməti olaraq heç kimi qəbrin üstünə çıxmağa qoymuruq".***





*Qeyd edək ki, türklərin ermənilərə qarşı savaş apardığı bu yerlərdə dəqiqləşməyən məzarlar çoxdur.*



*Orta məktəb şagirdi Nizami Əzimli isə daha bir qəbri  göstərib yaşlı qocaların: "Bu türk qəbridir" söylədiyini bizə xatırladır.*



*Bakı-Şamaxı yolunun solunda,*
*Qobustanın Cəngi qəsəbəsinin yaxınlığındakı Türk şəhid məzarı*

# ŞAMAXIDA

